# **Alman-Azərbaycan Xarici Ticarət Palatası** ilə görüş keçirilib








Martın 14-də İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Alman-Azərbaycan Xarici Ticarət Palatasının (AHK-Azərbaycan) rəhbərliyi arasında görüş keçirilib.

Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli ölkəmizin vergi sistemində aparılan islahatlara diqqət çəkərək bu islahatların biznes və investisiya mühitinin yaxşılaşdırılması, vergi yükünün azaldılması, vergilərin optimallaşdırılması, vergi orqanları ilə sahibkarlar arasında münasibətlərin yeni müstəvidə qurulması və vergi inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı olduğunu bildirib. Vurğulanıb ki, Dövlət Vergi Xidməti biznes nümayəndələri, o cümlədən Alman-Azərbaycan Xarici Ticarət Palatası ilə əməkdaşlığa, açıq dialoqa və qarşılıqlı fikir mübadiləsinə böyük əhəmiyyət verir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da müzakirələr aparılıb.